# Azərbaycan Xalq Cümhuriyyətində layiklik və din



**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

## Dini Etiqad Nazirliyi

*Azərbaycan Xalq Cümhuriyyətində dini etiqad məsələləri ilə məşğul olan icra hakimiyyəti orqanı idi.Milli ənənələrə qayıtmaq,əhalinin dini ehtiyaclarını ödəmək məqsədi ilə yaradılmışdı.1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci Hökumət kabinəsində Azərbaycan Xalq Maarifi və Dini Etiqad Nazirliyi adı ilə formalaşdırılmış və Nəsib bəy Yusifbəyli nazir təsdiq olunmuşdu.Yeni yaranmış dövlətin üstünlük verdiyi başlıca prinsiplər dünyəvi milliyətçilik və avropalaşma olmuşdur.Bununla belə,İslam dəyərləri də millətin mədəni dəyəri kimi qiymətləndirilmişdir.*

*Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qafqazın VII-VIII şeyxülislamları.*

## Məhəmmədəli Pişnamazzadə

Axund Məhəmməd Əli oğlu Pişnamazzadə 1853-cü il may ayının 15-də Gəncə şəhərində ruhani ailəsində anadan olmuşdur.İlk təhsilini Gəncə mədrəsəsində almış,sonra isə ali ruhani təhsili almaq üçün Təbrizə göndərilmişdir.1883-cü ildə Təbrizdə təhsilini başa vurmuş və Tiflisə gələrək şəhadətnamə almışdır.1890-cı ilin dekabr ayında Axund Məhəmməd Əli oğlunun yaşadığı evdə polis tərəfindən axtarış aparılır,Osmanlı və Qacar hökumətləri ilə əlaqə saxlamaqda günahlandırılır.Axund Məhəmməd və 37 nəfər Azərbaycan türkü həbs olunur.Türküstana sürgünə göndərilir.1892-ci ildə əfv edilib,vətənə qayıdırlar.Sürgündən qayıtdıqdan sonra fəaliyyətini dayandırmır.1892-ci ildə Gəncədə Cümə məscidinə axund təyin olunmuş,burada az müddət ərzində savadlı və bacarıqlı ruhani kimi hörmət qazanmışdır.1893-cü ildə Tiflis Vilayət Ruhani Məclisinin üzvü seçilmişdir.1895-ci ildə Gəncə Vilayət Ruhani Məclisinin sədri təyin olunmuşdur.

*1896-cı ildə "Məktəbül-Xeyriyyə"ni (Xeyriyyə məktəbi) təşkil etmişdir."Məktəbül-Xeyriyyə" 1900-cu ilə kimi milli məktəb formasında fəaliyyət göstərib,sonra rus-müsəlman məktəbinə çevrilib.Məktəbin milli məktəb formasından çıxmasının səbəbi Axund Molla Məhəmməd Pişnamazzadənin həbs olunub,sürgünə göndərilməsi ilə bağlı idi.Axund Molla Məhəmməd Pişnamazzadə yeni tipli " Üsuli-Cədid" məktəblərinin tərəfdarı idi.Açdığı və təşkil etdiyi "Məktəbül-Xeyriyyə" məktəbi Üsuli-Cədid məktəblərindən idi.Üsuli-Cədid məktəbləri XIX əsrin sonları-XX əsrin əvvəllərində yaranmışdır.Üsuli-Cədid məktəblərində dərslər ana dilində keçirilir,rus dili müstəqil fənn kimi tədris edilirdi.Əlifba təlimi yeni üsulla aparılırdı.1909-cu ildə Axund Molla Məhəmməd Pişnamazzadə rəsmi olaraq həmin məktəblərin icazəsini alır.Gəncə və Gəncə ətrafında yeni tipli məktəblər açdırır (Gəncə,Çobanabdallı,Borsunlu,Aşağı Ayıblı,Morul,Qarabağlar,Qazax, Sarıtepe,Əhmədbəyli,Qovlarsarı).*

Difai Partiyası 1905-ci ildə Bakıda və Gəncədə,Daşnaksütun partiyasının terrorizminə və çar istibdadına qarşı mübarizə aparmaq üçün yaradılan siyasi təşkilat idi.Difai Partiyasının Gəncə təşkilatının ilk sədri Axund Məhəmməd Əli oğlu Pişnamazzadə,müavini isə Ələkbər bəy Rəfibəyli idi.Ələkbər bəy Xasməmmədov və qardaşı Ələsgər bəy Xasməmmədov,doktor Həsən bəyAğayev,Ələkbər bəy Rəfibəyli,Şeyxülislam Məhəmməd Əli oğlu Pişnamazzadə,Yusif bəy Yusifbəyli və oğlu Həmid bəy Yusifbəyli,gimnaziyada din müəllimi işləyən Mirzə Məhəmməd Axundzade,müəllim Mirzə Cavad,gənc müəllimlərdən İdris Axundzadə və başqaları Gəncədə təsis olunan Difai Təşkilat Komitəsinin üzvləri idilər.

1905-1906-cı illərdə Gəncədə baş vermiş erməni-türk qarşıdurmasında "Difai" sözün əsl mənasında "Qafqazı qanlı səhnə halına salmaq" barədə verdiyi vədə əməl etdi.Gəncədə yerləşən "Cəmiyyəti-Xeyriyyə" və "Nəşri-Maarif" cəmiyyətlərinin binası qərargaha çevrilmiş və hərəkata rəhbər kimi Axund Məhəmməd Əli oğlu Pişnamazzadə seçilmişdir.

1906-cı ildə Difai Təşkilat Komitəsinin Gəncə təşkilatı başçısı Məhəmməd Pişnamazzadənin evində təkrar axtarış aparılır.Onun otağında "Difai" Partiyasına məxsus sənədlər və möhür ələ keçirilir.Axund ikinci dəfə həbsə atılıb Kazana sürgün edilir.

Məhəmməd Əli oğlu Pişnamazzadə fəaliyyətinə görə Kazan şəhərinə sürgünə göndərildən sonra təşkilata Ələkbər bəy Rəfibəyli sədrlik edir.

Axund Məhəmməd Pişnamazzadə sürgün vaxtı da Həştərxanda nəşr olunan "Həmiyyət", "Günəş","Burhani-tərəqqi" kimi qəzetlərdə məqalələrlə çıxış edir,müsəlman qızlarının təhsilə yiyələnmələrinin vacibliyindən xüsusi söhbətlər açırdı.1909-cu ildə Axundun sürgün vaxtı bitdiyindən o,Tiflisə köçür və həmin il iyulun 20-də Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin sədri seçilir.

1914-cü ilin noyabrında çar II Nikolay Tiflisdə olarkən həm şiə,həm də sünni məscidlərinə gedərək,müvafiq olaraq Şeyxülislam Məhəmməd Əli oğlu Pişnamazzadə və Müfti Hüseyn Əfəndi Qayıbovla görüşmüş,onların çıxışlarını dinləmiş və onların simasında bütün müsəlmanları salamlamışdı.

1915-ci ilin yanvarın 14-də Daxili İşlər İdarəsinin təsdiqinə əsasən imperator II Nikolay arıq 6 il şeyxülislam vəzifəsini icra etməkdə olan Məhəmməd Əli oğlu Pişnamazzadəni Zaqafqaziya Şiə Ruhani İdarəsinin sədri və Zaqafqaziya Şeyxülislamı vəzifəsində təsdiqləyir.1917-ci ilin fevral inqilabı dövründə Gəncə Müsəlman Komitəsində idi.

1918-ci ilin may ayının 28-də Tiflisdə Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını bəyan edir.Azərbaycan hökuməti suveren dövlət kimi fəaliyyətə başlayır.Bu zaman Qafqaz şiə və sünni ruhani idarələri bu şəhərdə yerləşirdilər.

*Müfti Hüseyn Qayıbzadə 1917-ci ildə vəfat etdiyindən və bu,çar Rusiyasının dağıdıldığı illərə təsadüf etdiyindən yerinə yeni müfti təyin edilməmişdi.Müftinin vəzifəsini Mustafa Əfəndizadə icra edirdi.1918-ci il sentyabrın 1-də Pişnamazzadə Qafqaz şiə və sünni ruhani idarələrini könüllü olaraq "Məşixə" deyilən vahid orqanda birləşdirdi.Difai Partiyasının Gəncə təşkilatının başçısı olmuş Məhəmməd Əli oğlu Pişnamazzadə Qafqaz müsəlmanlarının vahid dini lideri oldu.Qafqazda məzhəblərə parçalanmanı əbədiyən tariximizdən silir.Məşixəyə şeyxülislam və müfti ilə birlikdə 31 ruhani 16 şiə və 15 sünni qazisi daxil oldu.Bununla müsəlmanların dini işlərinin idarə edilməsində ikili sünni-şiə ruhani rəhbərliyi aradan qaldırıldı.Qafqaz müsəlmanlarının vahid idarəsi yarandı.Şeyxülislam idarənin rəhbəri,Qafqaz müsəlmanlarının ruhani başçısı,müfti isə onun müavini oldu.Osmanlı Sultanı VI Məhməd Vəhideddin (1918-1922) bütün müsəlmanların dini lideri xəlifə kimi rəsmən tanındı.Azərbaycan türklərinin birləşmiş dini idarəsi Tiflis şəhərində yerləşirdi.*

1918-ci ilin oktyabrın 30-da Şeyxülislam Pişnamazzadənin imzası ilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə 367 N-li təkliflər məktubu ünvanlamışdı.Həmin təkliflər 4 bölmədən ibarət idi.

1.Azərbaycan Cümhuriyyəti hüdudlarında "Məşixət-i İslamiyyə"(-Şeyxülislamlıq) adı altında ruhani idarəsi təsis edilsin və ona Osmanlıda mövcud olan şeyxülislamlıq kimi tam müstəqillik verilsin;

2.7 sentyabr tarixli 311 saylı təqdimatda göstərilən Məşixətin iki sədrindən,hər iki idarənin birləşdirilməsi məqsədi ilə birinə şeyxülislam,digərinə müstəşar,yaxud müşavir adı verilsin;

3.Şeyxülislam iclaslarda iştirak etmək hüququ ilə rəsmən Nazirlər Şurasının üzvü hesab edilsin;

4.Ruhani heyətin komplektləşdirilməsi üçün Məşixətin birbaşa sərəncamına kredit ayrılsın.Sadalanan və digər bu kimi dini məsələlərin həll edilməsi məqsədi ilə şeyxülislamın da iştirakı ilə fövqəladə yığıncaq çağırılsın.

Məhəmməd Pişnamazzadənin məktubuna uzun müddət cavab verilmədi.Azərbaycan Xalq Cümhuriyyəti hökuməti laiklik və sekulyarizmə əsaslanan dünyəvi milliyətçilik və avropalaşmaya əsaslanan dövlət modelini mənimsəmişdi.Beləliklə İslam və Türk Dünyasının ilk dünyəvi dövləti yaradılmışdı.Məmməd Əmin Rəsulzadə bu ideyanı irəli sürürdü.Millət öz hüquqlarını düşüncə əsasında nizamlayan cəmiyyətdir.

Həmin dövrdə,Məhəmməd Pişnamazzadə Qafqaz Şeyxülislamı ünvanı ilə Osmanlı hökumətinə yazdığı məktub müraciətlə deyir:Səadətli Paşa həzrətləri! 1334-cü ilin (1918) may ayının axırında Osmanlı dövlətinin siyasətinə görə Cənubi Qafqaz Türkləri müstəqil Azərbaycan dövlətini elan etmək məcburiyyətindəymişlər.Halbuki müstəqilliyin elanından əvvəl xalqımızın əhval-ruhiyyəsi haqqında müxtəlif bölgələrdən imzalar toplayaraq nəinki Camal Paşa vasitəsilə sizə məktub təqdim etmiş,hətta teleqraf da göndərmişik.

Bununla bərabər sülh müzakirələrinin uzandığını və Bolşevik zülmünün artdığını görüb anlayaraq millətin nümayəndəsi olaraq özünün müsəlman və türk olduğunu qəbul edən xalqımızın öz türk qardaşlarınailhaqdan başqa heç bir şeyi tanımayacağı kimi bunun üçün bütün mövcudiyyəti ilə hər şeyi fəda etməyə hazır olduğunu,əks halda anarxiyanın qarşısının heç bir halda alına bilməyəcəyini demək məcburiyyətində olduğumuz Vəhib Paşa həzrətlərinə ikinci dəfə bir ərizə ilə demişdik.

Lakin nədənsə hökumətə,daha doğrusu özünü hökumət elan etmiş olanlara etimadımız olmadığından,xalqı ilhaqa qarşı,müstəqil ola biləcəyinə inandırmaq təhlükəsinin olduğunu deməkdən özümüzü saxlaya bilmədik.

Bu halda fərman sizindir: 8 iyul 1334 (1918) .

*Qafqaz Şeyxülislamı axund Məhəmməd Pişnamazzadə.*

*İmzalar;*

*Əbdülqədir İsmayıl Əfəndizadə Şəkili*

*Yaqub Səfərəlioğlu Şəkili.*

*Bayram Niyazi Kiçikxanzadə Zaqatalalı*

*İsmayıl İsmayılzadə Gəncəli*

*Hacı Bəhlul İbrahimov Gəncəli*

*Həsən Hacımustafaoğlu Adığözəlov*

Məhəmməd Əli oğlu Pişnamazzadə1918-ci il dekabrın 10-da Qafqaz Müsəlmanları İdarəsinin sədri və Şeyxülislam vəzifəsindən istefa verdi və öz fəaliyyətini Gəncə Cümə məscidinin axundu kimi davam etdirmişdir.Musa bəy Rəfiyevin tövsiyyəsi ilə dekabrın 12-də Təzəpirin axundu 47 yaşlı Ağa Əlizadə şeyxülislam seçildi.

Pişnamazzadənin irəli sürdüyü təkliflər yalnız 1920-ci ilin martında hökumətin geniş müzakirəsinə çıxarıldı ki,artıq bu vaxt Məhəmməd Pişnamazzadə istefa vermiş və onun yerinə Ağa Əlizadə Şeyxülislam təyin edilmişdi.

1920-ci ilin 28 aprelində ruslar Azərbaycanı işğal edirlər.Məhəmməd Pişnamazzadə bu dəfə "Şura" adıyla gələn rusların növbəti təqibinə məruz qalır və az keçmir ki, Gəncə üsyanından sonra həbs olunur.Rus işğal idarəsinin başında olan Nəriman Nərimanov bu haqda məlumat alan kimi Məhəmməd Pişnamazzadənin azad olunması əmr edir və onun açdırdığı yeni tipli Üsuli-Cədid məktəblərinin Azərbaycan türklərinin maariflənməsində böyük xidmətləri olduğunu söyləyir.

Nəriman Nərimanovun Moskvaya getməsindən sonra Axund təqib və təzyiqlərlə yaşamağa məcbur edilir.Onun üzərində sərt nəzarət qoyulur.

Axund Məhəmməd Pişnamazzadə 1938-ci ildə 85 yaşında vəfat edir.Gəncədə imamzadə qəbirstanlığında dəfn olunmuşdur.



## Ağa Əlizadə

*Şeyxülislam Axund Ağa Cavad oğlu Əlizadə 1871-ci il oktyabrın 22-də Bakının Pirşağı qəsəbəsində,ruhani ailəsində anadan olmuşdur.Atası Axund Hacı Məhəmməd Cavad dövrünün çox tanınmış din xadimlərindən və ziyalılarından biri olmuşdur.Gəncliyində Ağa Əlizadə ali dini təhsil almaq üçün Bağdada göndərilir.Bağdad Universitetinin ilahiyyat fakültəsini bitirdikdən sonra Nəcəf şəhərində Ali Dini Universitetdə oxumağa gedir.*

1896-cı ildə 25 yaşında Nəcəfdə Dini Universitetdə təhsilini böyük uğurla başa vurub "Axund" rütbəsi qazanan Ağa Əlizadə doğma vətənə qayıdır və İçərişəhər məhəllə məscidlərindən birinə təyinat alır.1903-cü ildə 32 yaşında Təzəpir məscidinə axund təyin edilir.1904-cü ildə Axund Ağa Əlizadə Qafqaz müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçildi.1907-ci ilin yayında Ağa Əlizadə Bakıda "Sədət" Müsəlman Ruhani Cəmiyyəti yaratdı və onun sədri seçildi.Cəmiyyətin fəaliyyətində yazıçı Nəcəf bəy Vəzirov,milyonçular İsa bəy Aşurbəyov,Zeynalabdin Tağıyev və başqa elm,mədəniyyət və din xadimləri də fəal iştirak edirdilər.1907-ci ilin sentyabrında Bakıda "Mədrəseyi Səadət" məktəbini açdırır və Əli bəy Hüseynzadə məktəbə müdir təyin edilir.

1918-ci ildə Dini etiqad və sosial təminat naziri Musabəy Rəfiyevin əmri ilə Axund Ağa Əlizadə Şeyxülislam təyin edildi.O vaxt atası Hacı Cavad Əlizadə Bakıda quberniya din məclisinin sədri idi.Şeyxülislam 1918-ci ildə sələfi Pişnamazzadə kimi Məşixət sədrinə nazir səviyyəsində məvacib verilməsini və Mərkəzi Aparat üzvlərinin 15 nəfərə çatdırılmasını tələb edirdi.Lakin bu alınmır.Axund Ağa Əlizadə 1920-ci ilin mayın 12-nə kimi Şeyxülislam vəzifəsində çalışdı.

*1943-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə fəaliyyətinə 1920-ci ildə xitam verilmiş Qafqaz Müsəlmanları Ruhani İdarəsi bərpa edildi və Ağa Əlizadənin idarənin sədri seçilməsi üşün namizədliyi irəli sürüldü.1944-cü il mayın 25-də Qafqaz Müsəlmanları Ruhani İdarəsinin birinci qurultayı çağrıldı.1944-cü il mayın 28-də keçirilmiş səsvermə zamanı Axund Ağa Əlizadə yenidən Qafqaz Şeyxülislamı seçildi.*

*Ağa Əlizadə 1954-cü il 15 dekabrda, 83 yaşında Bakıda vəfat etmişdir.*

*Milli dövlətçiliyimiz tarixində ilk dəfə olaraq məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalqın demokratik hüquq və azadlıqları bərqərar edilmiş, müsəlman dünyasında ilk dünyəvi dövlət qurulmuşdu.*